F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. №

# Prezident İlham Əliyev: Bayrağımız işğal edilmiş bütün torpaqlarda qaldırılacaq!

XALQ QƏZETİ

№ 209 (29474) 11 oktyabr 2020-ci il, bazar

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

# Azərbaycan xalqı qalib Prezidentinin və müzəffər Ordusunun arxasında dayanıb



***❐ Müzəffər Azərbaycan Ordusunun Hadrut qəsəbəsini, bir neçə kəndi və mühüm strateji yüksəklikləri azad etməsi münasibəti ilə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xalqa müraciəti dövlətimizin başçısının uzaqgörən, xalqın dərin etimad və inamını əməli xidməti ilə doğruldan qalib siyasətçi olduğunu bir daha təsdiqlədi.***

Dövlətimizin başçısının qətiyyətli siyasəti Ermənistan və onun ədalətsiz havadarlarının acı məğlubiyyəti ilə nəticələndi, Azərbaycan uzun illər çəkən bu ədalətsiz siyasi-hərbi mübarizədən qalib çıxdı. Azərbaycan Prezidenti müdrik siyasəti, qətiyyəti ilə status-kvonu dəyişdirdi, təmas xəttini darmadağın etdi. Haqq işində Azərbaycan xalqının birliyi, qalib Prezidentinə və qəhrəman Azərbaycan Ordusuna inamı bu tarixi qələbəni reallaşdırdı. Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bir daha təsdiq etdi.

Bu haqq savaşı Ermənistanın baş naziri Nikol Paşinyanın ölkəmizə qarşı qaldırdığı əsassız iddialarla və hikkələrlə danışması fonunda bir daha onun və antidemokratik, qaniçən hökumətinin faşist ideologiyasına xidmət etdiyini bütün dünyaya göstərdi.

Prezident İlham Əliyev bütün bunlar barədə oktyabrın 9-da "CNN International" televiziya kanalına müsahibəsində ətraflı bəhs edib. Dövvlətimizin başçısı jurnalistin Nikol Paşinyanın yalan məlumatına əsaslanaraq "guya Türkiyə öz zabitləri, generalları, muzdluları, terrorçu cihad döyüşçüləri ilə Dağlıq Qarabağda döyüşmək üçün Azərbaycana minlərlə adam gətirib. Türkiyə öz hərbi gücü ilə guya müəyyən beynəlxalq logistik strukturları qorumaq üçün orada olduğunu deyir. Azərbaycanda hazırda hər hansı bir türk qüvvələri və ya türk avadanlığı varmı?"–sualına cavabında bildirib: "Bəli, türk avadanlığı var. Türk qüvvələri yoxdur. Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir. Bu dəstək olmasaydı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır" ifadəsi ilə bu çox açıq mövqe olmasaydı, çox güman ki, bu gün Ermənistan öz məqsədinə nail olmuş olardı. Bu da münaqişənin coğrafiyasının genişlənməsi və mümkün qədər çox ölkənin bu münaqişəyə cəlb olunmasından ibarətdir ki, bu ölkələr döyüş meydanında onlara kömək etsinlər...".

Dövlətimizin başçısı müsahibəsində daha sonra Ermənistan prezidentinə 1990-cı illərin əvvəlində düşmən ölkənin Azərbaycan torpaqlarını işğal etdikdə onun arxasında kimin durduğunun məlum olduğunu xatırladıb. Həmçinin bu barədə Azərbaycan tərəfində kifayət qədər sübutun mövcudluğunu, Nikol Paşinyanın isə "Azərbaycana kimsə kömək edir" deməsinin tamamilə səhv və yanlış informasiya olmasını diqqətə çatdırıb.



Prezident İlham Əliyev müsahibəsində jurnalistin– "Hazırda sizin yürütdüyünüz kampaniyanın məqsədlərini açıq şəkildə bildirə bilərsinizmi?"–sualına cavabında Azərbaycanın məqsədinin xalqımızı torpağında yaşamaq hüququnu müdafiə etməkdən ibarət olduğunu xatırladıb. Eyni zamanda, əlavə edib ki, sentyabrın 27-də Azərbaycanın hərbi mövqelərinə, şəhər və kəndlərimizə artilleriya atəşini Ermənistan açıb. Toqquşmalar gedən günlərdə Ermənistan ordusu tərəfindən 31 nəfər mülki şəxs qətlə yetirilib, 200 nəfər yaralanıb, 1000-dən çox ev dağıdılıb və ya onlara ciddi ziyan dəyib: "Biz cavab verməli idik, özümüzü müdafiə etməli idik. Bizim cavabımız Ermənistan üçün çox həssas və ağrılı oldu. Onlar çox ciddi məğlubiyyət acısını yaşadılar, onlar bizdən qaçdılar, biz ərazimizin bir hissəsini azad etdik, biz işğaldan azad olunmuş ərazilərə milli bayrağımızı sancdıq. Biz ərazi bütövlüyümüzü bərpa edirik və biz haqlıyıq. Biz öz torpağımızda savaşırıq, Ermənistan digər ölkənin torpağında vuruşur",–deyə dövlətimizin başçısı bildirib.

Azərbaycan Prezidenti müsahibəsində jurnalistin – "Siz bütün Dağlıq Qarabağı, mübahisə predmeti olan bütün torpaqları geri götürmək niyyətindəsiniz?– sualına cavabında isə bildirib ki, burada söhbət Dağlıq Qarabağ və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini əhatə edən yeddi rayondan gedir. Çünki Ermənistan Dağlıq Qarabağı işğal etməklə bərabər, həm də muxtar vilayətin əhalisinin 25 faizini təşkil edən bütün azərbaycanlıları oradan qovub, eyni zamanda, əhalisinin sayı 700 min olan Azərbaycanın yeddi rayonunu işğal edib. Beləliklə, Azərbaycanın əsas məqsədi həmin ərazilərin işğalına son qoymaq və azərbaycanlı məcburi köçkünlərin öz əzəli yurdlarına qayıtmasına imkan yaratmaqdır. Dağlıq Qarabağa isə dəfələrlə rəsmi şəkildə bəyan edildiyi kimi, müharibə bitəndən, işğalçı qüvvələr çıxarıldıqdan sonra multietnik əhalisi olan istənilən digər ölkədə olduğu kimi, Dağlıq Qarabağdakı ermənilər və azərbaycanlılar bir-birinə yaxşı qonşu olaraq yanaşı yaşayacaqlar.

Dövlətimizin başçısı müsahibəsində, həmçinin hazırda Azərbaycanda minlərlə erməninin ölkəmizin müxtəlif şəhərlərində, əsasən isə paytaxt Bakıda yaşadığını diqqətə çatdırıb. Bildirib ki, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəyə hücum üçün ermənilərin istifadə etdiyi uzunməsafəli dağıdıcı mərmilərdən biri olan "Smerç" erməni qadının evinə düşüb. Bu da onu göstərir ki, hazırda Azərbaycanda əmin-amanlıq şəraitində yaşayan minlərlə erməni var. Lakin bütün azərbaycanlılar Ermənistandan qovulublar. Ermənistan əhalisi 99 faiz ermənilərdən ibarətdir. Onlar bizə qarşı etnik təmizləmə törədiblər. Erməni baş naziri yenə də yalan deyir. Çünki hazırda Dağlıq Qarabağda əhalinin 95 faizi ermənilər deyil, əhalinin 100 faizi ermənilərdir. Orada yaşayan 25 faiz azərbaycanlı əhali Ermənistan rejimi tərəfindən etnik təmizlənməyə məruz qalıb.

Azərbaycan Prezidenti İlham Əliyev müsahibədə yer alan bu məqamla bağlı daha sonra deyib: "Mən təəssüf edirəm ki, belə mühüm vəzifə tutan şəxs yalanlar yayır. İnternetə baxın. XIX əsrin əvvəlində Azərbaycanın Qarabağ xanı ilə rus generalı arasında imzalanmış Kürəkçay sülh müqaviləsinə baxın. Erməni əhalisi haqqında heç bir şey deyilmir. Erməni əhali bizim torpağımıza Rus-İran müharibələrindən sonra Rusiya imperiyası tərəfindən regionun dini tərkibini dəyişdirmək məqsədilə köçürülüb. Bu, tarixi faktdır. Ermənistan prezidentinin dedikləri isə feykdir, tamamilə feykdir".

Dövlətimizin başçısı daha sonra beynəlxalq vasitəçilik haqqında fikirlərini də diqqətə çatırıb. Bildirib ki, beynəlxalq vasitəçilik 28 ildir ki, mövcuddur. Belə ki, ATƏT-in Minsk qrupu 1992-ci ildən bu yana faktiki olaraq passiv formada "fəaliyyət" göstərir. Bu vasitəçilik bu gün baş verənlərə gətirib çıxardı. Ermənistanı onlara məxsus olmayan əraziləri tərk etməyə məcbur etmək üçün yetərli iş görülmədi.

Müsahibədə Azərbaycanın sülh danışıqlarının tərəfdarı olması, danışıqlar masasında konstruktivlik nümayiş etdirməsi, ABŞ, Rusiya və Fransa tərəfindən işlənib hazırlanan prinsipləri əsas kimi dəyərləndirməsi, lakin Ermənistanın baş nazirinin bütün bunları rədd etməsi, "Qarabağ Ermənistandır" deyərək, formatın dəyişməsinə cəhd göstərməsi barədə də ətraflı danışılıb.

Azərbaycan Prezidenti İlham Əliyev müsahibədə "Amnesty International"ın yeni hesabatı ilə bağlı da fikirlərini bildirib: "Mən deyərdim ki, ermənipərəst və anti-Azərbaycan mövqeyinə görə sizin adını çəkdiyiniz təşkilatla bizim heç bir təmasımız yoxdur. Birincisi, bu, səhvdir, yanlışdır. İkincisi, mən onlara tövsiyə edərdim ki, kasetli bombaların bizim mülki şəxslərimizə qarşı necə istifadə olunduğuna baxsınlar. Onların "Smerç"dən, "Elbrus"dan, "Toçka U"dan, ballistik raketlərdən bizim şəhərlərimizə qarşı necə istifadə etdiyinə baxsınlar - Gəncə, Goranboy, Naftalan, Yevlax və digər şəhərlər Ermənistanın bombardmanı altındadır. Niyə "Amnesty International" yalnız bir tərəfi görür və ya görmək istəyir? Niyə onlar digər tərəfi görmürlər? Sual budur".

Yeri gəlmişkən, xatırladaq ki, uzun illərdir ki, "Human Rights Watch", "Freedom House", "Amnesty International" kimi ermənipərəst dairələr tərəfindən maliyyələşən təşkilatlar ikili standartlardan və böhtanlardan əl çəkməyərək, yalanları ilə onlara olan inamı heçə endiriblər. Təbii ki, bu cür qərəzli təşkilatlar sıradan hesabatlar hazırlamırlar. Onların bu məsələdə hamisi rolunu məhz güclü erməni lobbisi oynayır.

Azərbaycan Ordusunun bir-birinin ardınca qazandığı qələbələr, işğalda olan ərazilərimizin 27 ildən sonra azad edilməsi ermənipərəst dairələr kimi "Amnesty International" təşkilatını da yandırıb-yaxıb. Bunu təşkilatın ikrah hissi yaradan bəyanatı da təsdiqləyir.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

***Ermənistanın və havadarlarının həyasız və əndazəsiz təbliğatı barədə çox yazılıb. Həqiqəti təhrif etməyə yönəlik fəaliyyətin mənfur qonşularımızın gündəlik həyatlarının bir hissəsinə çevrilməsi heç kimə sirr deyil. Dağlıq Qarabağ ərazisində gedən gərgin döyüşlərin fonunda Ermənistanın apardığı indiki yalançı təbliğat və dezinformasiya fəaliyyəti də belə deməyə əsas verir ki, hiyləgər və məkrli düşmən ölkə ilə mübarizə təkcə döyüş meydanlarında deyil, həm də informasiya məkanında aparılmalıdır. Xüsusilə də xarici auditoriya üçün Qarabağ həqiqətləri barədə məlumatların verilməsi strateji əhəmiyyət daşıyır, çünki doğru və dolğun məlumatların geniş yayılması qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsində çox böyük rol oynayır. Bu mənada Prezident İlham Əliyevin son günlər dünyanın aparıcı televiziya kanallarına verdiyi geniş müsahibələr Azərbaycan həqiqətlərinin geniş miqyasda yayılmasında çox mühüm əhəmiyyət kəsb edir.***

# *Prezident İlham Əliyev:* Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik

Ermənistan silahlı qüvvələrinin təxribatına qarşı əks-hücum əməliyyatlarının başlanmasından bugünədək Azərbaycan Prezidenti İlham Əliyev dünyanın nüfuzlu televiziya kanallarına geniş və dolğun müsahibələr verib. Ermənistanın qara təbliğatı fonunda bu müsahibələrin xarici auditoriyanın əks-hücum əməliyyatları barədə doğru və ətraflı məlumat alması baxımından çox böyük əhəmiyyəti var. Ölkə başçısı bu müsahibələrində Ermənistanın işğalçı əməllərini ifşa etməklə yanaşı, həm də Azərbaycanın haqlı mübarizəsi barədə də dolğun məlumatları açıqlayır.

Böyük Britaniyanın məşhur "Sky News" televiziya kanalına müsahibəsində də Prezident İlham Əliyev Azərbaycanın problemlə bağlı prinsipial mövqeyini bir daha səsləndirib, münaqişənin ədalətlə həll olunmasının vacibliyini vurğulayıb, ən əsası, Qərb tamaşaçısını maraqlandıran bir sıra suallara aydınlıq gətirib. Məsələn, ölkə başçısı "Sky News" telekanalına müsahibəsində mümkün danışıqların şərtlərini açıqlayıb: "Ermənistanın dəstəkləməkdən imtina etdiyi əsas prinsiplərdə torpaqların açıq-aydın necə geri qaytarılacağı göstərilir. Birinci mərhələdə Dağlıq Qarabağın cənub-şərq tərəfində yerləşən beş Azərbaycan rayonu, sonra Dağlıq Qarabağ və Ermənistan arasında yerləşən iki Azərbaycan rayonu qaytarılmalıdır. Sonra azərbaycanlılar Dağlıq Qarabağa qayıdırlar. Dağlıq Qarabağda 25 faiz azərbaycanlı əhali olub, onların da hüquqları təmin edilməlidir. Onlar yaşadıqları yerə - qədim Şuşa şəhərinə və digər yerlərə qayıdırlar və biz normal kommunikasiyaları bərpa edirik. Biz xalqlar arasında təmasları bərpa edirik. Bu, vasitəçilərin planıdır və biz bunu dəstəkləyirik".

*(ardı 7-ci səhifədə)*